

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 219 (23.381)

21 noyabr 2019-cu il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Siyasi Şurasının iclası keçirilmişdir





Noyabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri Vasif Talıbovun sədrliyi ilə təşkilatın Siyasi Şurasının iclasında "Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının fəaliyyəti və qarşıda duran vəzifələr" müzakirə olunmuşdur.

Ali Məclisin Sədri iclası açaraq demişdir ki, Yeni Azərbaycan Partiyası zamanın tələbi ilə yaranmışdır. Müstəqil Azərbaycan dövləti və Yeni Azərbaycan Partiyası ümummilli liderimiz Heydər Əliyevin şah əsərləridir. 1992-ci ildə ölkə ziyalılarının ulu öndərə müraciəti əsasında yaranan Yeni Azərbaycan Partiyası qısa müddətdə böyük xalq dəstəyi qazanaraq hakim partiyaya çevrilmişdir. ***"Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır"***, – deyən ümummilli liderimiz Azərbaycanı yeni inkişaf mərhələsinə çıxarmış, müstəqilliyimiz qorunub saxlanılmışdır. Bu gün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev ulu öndərin siyasi xəttini uğurla davam etdirir, müstəqilliyimiz daha da möhkəmlənir. Dövlət başçısının ***"Ölkəmizin ən qiymətli sərvəti onun insanlarıdır"*** fikri bütün sahələrdə inkişafın əsas istiqamətinə çevrilmişdir.

Ali Məclisin Sədri noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümünün tamam olduğunu bildirmiş, bu münasibətlə partiyanın muxtar respublika təşkilatının üzvlərini, təəssübkeşlərini və bütün muxtar respublika əhalisini təbrik etmişdir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublikası Təşkilatının İcra katibi Anar İbrahimov çıxış edərək demişdir ki, 2019-cu ilin ötən dövründə 1337 nəfər partiya sıralarına qəbul olunmuşdur ki, onların da 91 faizi gənclər, 52 faizi isə qadınlardır. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı üzvlərinin 39 faizi ali, 21 faizi isə orta ixtisas təhsillidir. Bu gün partiya uçotunda duranların 27-si elmlər doktoru, 178-i fəlsəfə doktorudur. Partiya təşkilatının geniş sosial nüfuzu onun üzvlərinin muxtar respublikanın seçkili orqanlarında təmsilçiliyinə də öz təsirini göstərmişdir. Üzvlərdən 2-si Azərbaycan Respublikasının Milli Məclisinin, 41-i isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatıdır. Hazırda muxtar respublikanın şəhər və rayon təşkilatlarının 501 ərazi ilk partiya təşkilatları mövcuddur. Kənd yerlərində ərazi ilk partiya təşkilatları üçün iş otaqlarının ayrılması davam etdirilmiş, bu ilin ötən dövründə 8 ərazi ilk partiya təşkilatı kənd mərkəzlərində müasir iş otaqları ilə təmin olunmuşdur. Cari ildə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı, şəhər və rayon partiya təşkilatlarının xətti ilə 51 müxtəlif tədbir keçirilmiş, 72 İdarə Heyəti, 24 Şura yığıncağı olmuşdur. Bu il həmçinin İcra Katibliyi və rayon təşkilatlarının aparatlarında çalışan işçilərin əməkhaqları orta hesabla 30 faiz artırılmışdır. Anar İbrahimov göstərilən diqqətə görə partiya üzvləri adından minnətdarlığını bildirmişdir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov çıxış edərək demişdir ki, muxtar respublikada gənclər üçün mərkəzlərin, elektron kitabxanaların, mədəniyyət evlərinin, ali təhsil müəssisələrində yeni tədris korpuslarının, orta məktəblər üçün yeni binaların, olimpiya idman komplekslərinin, idman mərkəzlərinin və digər obyektlərin istifadəyə verilməsi, Gənclər Fondunun yaradılması, gənclərin dövlət qulluğunda irəli çəkilməsi, istedadlı gənclərə dövlət qayğısı muxtar respublikamızda gənclərlə bağlı aparılan uğurlu siyasətin bariz nümunəsidir. Muxtar respublikada gənc nəslin yetişdirilməsi, intellektual potensialının daim zənginləşdirilməsi məqsədilə yaradılan şərait onların ictimai-siyasi və sosial-mədəni həyata daha fəal cəlb olunmasını şərtləndirməklə yanaşı, həm də öz potensiallarını sərbəst, səmərəli şəkildə reallaşdırmalarına da yol açır. Yaradılan bu şərait Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin fəaliyyətinə də öz təsirini göstərmişdir. Hazırda təşkilat üzvlərinin 23 min 447-ni gənclər təşkil edir. Üzvlərdən 12-si fəlsəfə doktoru, 3269-u isə tələbədir. Bu ilin ötən dövründə gənclərin vətənpərvər ruhda tərbiyə olunması, onlarda dövlətə sədaqət və dövlət rəmzlərinə hörmət hissinin aşılanması məqsədilə 139 tədbir keçirilmişdir. Azad Cabbarov gəncliyin inkişafı sahəsində həyata keçirilən tədbirlərə görə Naxçıvan Muxtar Respublikasının gəncləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının siyasi şurasının üzvü Ülviyyə Həmzəyeva çıxışında bildirmişdir ki, ümummilli liderimizin müəyyənləşdirdiyi dövlət qadın siyasəti muxtar respublikada uğurla həyata keçirilir. Muxtar respublika əhalisinin 51 faizdən çoxunu təşkil edən qadınların qərar qəbul etmədə, hüquq-mühafizə və icra hakimiyyəti orqanlarında iştirakı genişləndirilir. Bu gün qadınların Yeni Azərbaycan Partiyasında təmsilçiliyi də sürətlə artmaqdadır. Hazırda muxtar respublika təşkilatı üzvlərinin 24 min 662-si qadındır. Onlardan 7205-i təhsil, 3515-i səhiyyə, 2029-u elm, mədəniyyət və incəsənət, 2184-ü idarəetmə, 6309-u isə digər sahələrdə çalışır. Cari ilin 10 ayı ərzində partiya sıralarına 691 qadın qəbul olunmuşdur. Partiya üzvü olan qadınlar muxtar respublikanın ictimai həyatında aktiv iştirak edir, öz potensiallarını dövlətimizin inkişafına yönəltməyi bacarırlar. Qadınlar şuralarının üzvləri adından minnətdarlıq edən Ülviyyə Həmzəyeva bundan sonra da göstərilən etimadı doğruldacaqlarına söz vermişdir.

Sonra Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının qərarı oxunmuş, Siyasi Şuranın və İdarə Heyətinin yeni tərkibi təsdiq edilmişdir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasına yeni seçilən üzvlər – Rəhman Məmmədov, Elbrus İsayev, Cəbi Quliyev, Ülvi Hüseynli, İsmayıl Qəribli, Mirsənani Seyidov, Nicat Babayev və Natəvan Qədimova göstərilən yüksək etimada görə minnətdarlıq etmiş, bundan sonra da qarşıya qoyulan vəzifələrin icrasında səylə çalışacaqlarını bildirmişlər.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının üzvü Sahil Tahirli Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümü münasibətilə partiya üzvləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri Vasif Talıbovu təbrik etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iclasda çıxış edərək demişdir: Yeni Azərbaycan Partiyası ulu öndərimiz Heydər Əliyevin ətrafında birləşən, sabitlik və inkişaf istəyən, ölkəni parçalayanlara qarşı mübarizə aparan Azərbaycan xalqının arzusu və tələbi ilə yaranmışdır. Partiyanın yaranmasının nə qədər zəruri və ölkəmiz üçün nə qədər əhəmiyyətli olduğu ötən dövrdə tam sübut olunmuşdur. 1992-ci il noyabrın 21-də ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında təsis konfransı keçirilən Yeni Azərbaycan Partiyası ötən dövrdə mühüm inkişaf yolu keçmiş, xalqımızın mütləq iradəsini ifadə edən siyasi təşkilat kimi formalaşmışdır. Ulu öndərimiz Yeni Azərbaycan Partiyasının yaradılması zərurətini belə əsaslandırmışdır: ***"Azərbaycanın müstəqil dövlət kimi milli ideologiyası Yeni Azərbaycan Partiyasının məramnaməsində öz əksini tapıbdır. Bizim həm xarici siyasətdə, həm daxili siyasətdə, həm ictimai-siyasi sahədə, həm sosial-iqtisadi sahədə gördüyümüz işlər bu milli ideologiyanın üzərində qurulur"***.

Ali Məclisin Sədri demişdir: Ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə partiyamız Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin və inkişafının əsas təminatına çevrilmişdir. Bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında əldə olunan inkişaf və sabitlik Yeni Azərbaycan Partiyasının əsas ideoloji istiqamətlərini təşkil edir. Ötən dövrdə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının sıraları xeyli genişlənmiş, bütün yaşayış məntəqələrində Yeni Azərbaycan Partiyasının ərazi ilk təşkilatları yaradılmışdır. Hazırda partiyanın muxtar respublika təşkilatının 56 mindən çox üzvü vardır ki, onların da 44 faizi qadınlar, 41 faizi isə gənclərdir. Bu gün partiya üzvləri muxtar respublikanın siyasi fəal əhalisinin 18 faizini təşkil edir. Göründüyü kimi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı mühüm siyasi qüvvə kimi formalaşmış, sıraları həm kəmiyyət, həm də keyfiyyət baxımından xeyli zənginləşmişdir. Lakin partiya-təşkilat işini daha da gücləndirmək, partiyamızın cəmiyyətdə tutduğu yüksək mövqeyi qoruyub saxlamaq və daha da möhkəmləndirmək bu gün qarşıda duran əsas vəzifələrdir.

Ali Məclisin Sədri qarşıda duran vəzifələrin icrası ilə bağlı müvafiq tapşırıqlar verərək demişdir: Ümummilli liderimiz Heydər Əliyev tərəfindən Yeni Azərbaycan Partiyasının proqramında irəli sürülmüş vəzifələr bundan sonra da partiyanın muxtar respublika təşkilatının əsas fəaliyyət istiqaməti olmalıdır. İdeoloji işin təşkili Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının qarşısında duran əsas məsələdir. Ona görə də partiya üzvlərinin nəzəri biliklərinin artırılması üçün tədbirlər görülməli, hər bir partiya üzvü Yeni Azərbaycan Partiyasının əsas ideoloji dayaqları olan müstəqilliyimizin, Azərbaycançılığın, sosial rifahın və iqtisadi islahatların möhkəmləndirilməsinə töhfələr verməlidir.

Qeyd olunmuşdur ki, Yeni Azərbaycan Partiyasına xidmət etmək müstəqil Azərbaycan dövlətinə xidmət etmək deməkdir. Bu gün muxtar respublikada əldə olunan nailiyyətlər, bütün sahələri əhatə edən davamlı inkişaf Yeni Azərbaycan Partiyası tərəfindən həyata keçirilir. Ona görə də görülən işlərin mahiyyəti insanlara düzgün izah olunmalı, səmərəli təbliğat mexanizmi qurulmalıdır. Hər bir ölkənin gələcəyi onun gəncləri ilə bağlıdır. Bu gün muxtar respublikada gənclərin hərtərəfli yetişməsi üçün bütün imkanlar vardır. Partiyanın Heydər Əliyev adına Gənclər Birliyi aid dövlət qurumları ilə birlikdə bu işdə fəaliyyətini gücləndirməli, müxtəlif tədbirlər keçirilməli, ulu öndər Heydər Əliyevin irsi, milli və mənəvi dəyərlərimiz gənclərə öyrədilməli, onların potensialından səmərəli və məqsədyönlü istifadə olunmalıdır.

Ulu öndərimiz deyirdi ki, ***"Yeni Azərbaycan Partiyasına hər kəs öz könlü, vicdanı, qəlbi ilə gəlməlidir. Hamı bilsin ki, bu partiya saflıq, saf mənəviyyat üzərində qurulmuş bir partiyadır. Bu partiya Azərbaycanın tarixi köklərinə, milli-mənəvi dəyərlərinə söykənən, ümumbəşəri dəyərlərdən bəhrələnən ümumxalq partiyasıdır. Azərbaycanın bütün vətəndaşlarının partiyasıdır"***. Partiyanın İcra Katibliyi, Gənclər Birliyi, şəhər və rayon təşkilatları dahi rəhbərin müəyyənləşdirdiyi prinsiplər əsasında vətənpərvər, intellektli və yaradıcı gənclərin partiyaya üzv qəbul olunmasını diqqətdə saxlamalı, yeni üzvlərlə fərdi işə üstünlük verilməli, onların siyasi bilikləri yoxlanılmalı, təsadüfi şəxslərin partiya sıralarına daxil

Ardı 2-ci səhifədə

olmalarına imkan verilməməlidir. Muxtar respublikanın ali təhsil müəssisələrində böyük gənclər ordusu vardır. Ona görə də ali təhsil ocaqlarında fəaliyyət göstərən ərazi ilk təşkilatları tələbələrlə işə üstünlük verməli, partiya üzvü olan tələbələr siyasi cəhətdən tam formalaşdırılmalı, ehtiyat kadr potensialının yaradılmasına burdan başlanılmalıdır.

Ali Məclisin Sədri demişdir: Yeni Azərbaycan Partiyasına üzvlük işin bir tərəfidirsə, əsas məsələ isə hər bir üzvün partiya işində yaxından iştirakını təmin etməkdir. Üzvlər öz fəaliyyətində partiyanın prinsiplərini əsas götürməli, onun nüfuzunu qorumalı, ideyalarını təbliğ etməli, ictimai-siyasi məsələlərdə aktivlik göstərməlidirlər. Aparılan gəncləşmə siyasəti nəticəsində yerlərdə ərazi təşkilatlarının rəhbər şəxslərinin işə yanaşmasında nəzərəçarpacaq irəliləyiş olsa da, onların aktivliyi istənilən səviyyədə deyil. Hər il muxtar respublikada geniş quruculuq işləri aparılır, kəndlər abadlaşır, yeni sosial obyektlər istifadəyə verilir. Tikilən kənd mərkəzlərində ərazi ilk təşkilatları üçün lazımi iş şəraiti yaradılır. Lakin etiraf edək ki, bəzi ərazi ilk təşkilatları əhatə etdiyi yaşayış məntəqələrinin ictimai həyatında yaxından iştirak etmirlər. Bu sahədə fəaliyyət canlandırılmalı, müxtəlif tədbirlər keçirilməli, dövlət siyasətinin mahiyyəti tam izah olunmalı, tikilənlərin, qurulanların qorunmasına şüurlu münasibət formalaşdırılmalıdır. Partiyanın qadınlar şuralarının fəaliyyətləri də gücləndirilməli, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə yeni layihələr üzərində işlənilməli, keçirilən tədbirlərin məzmunu və keyfiyyəti artırılmalıdır.

Diqqətə çatdırılmışdır ki, müasir dövrdə kütləvi informasiya vasitələri və sosial medianın ictimai rəyin formalaşmasındakı rolunun getdikcə artmasını nəzərə alaraq İcra Katibliyi, Gənclər Birliyi, şəhər və rayon təşkilatları yeni proqram və layihələr hazırlayıb həyata keçirməli, ictimai fikir düzgün istiqamətləndirilməli, bu işdə partiyanın gənc üzvlərinin potensialından səmərəli istifadə olunmalıdır. 23 dekabr 2019-cu il tarixinə təyin olunmuş Bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası üzvlərinin iştirakı və onların dəstəklənməsi üçün müvafiq tədbirlər görülməli, yerlərdə partiya üzvlərinin və təəssübkeşlərinin seçki aktivliyinin təşviq edilməsi ilə bağlı işlər aparılmalıdır. Qarşıya qoyulan vəzifələr Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyinin, Gənclər Birliyinin, şəhər və rayon təşkilatlarının, qadınlar şuralarının 2020-ci il üçün tədbirlər planına salınmalı, icra vəziyyəti ilə bağlı aidiyyəti üzrə məlumat verilməlidir.

“Bizim vəzifəmiz partiya işini düzgün təşkil etməklə ulu öndərin müəyyənləşdirdiyi vəzifələrin reallaşdırılmasına nail olmaqdan ibarətdir. Partiyamızı və ölkəmizi ümummilli liderin yolu ilə aparan ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: “***Azərbaycanın gələcəyi Yeni Azərbaycan Partiyası ilə bağlıdır! Azərbaycanın gələcəyi Heydər Əliyevlə və onun siyasəti ilə bağlıdır***”, – deyən Ali Məclisin Sədri bu yolda partiya üzvlərinə uğurlar arzulamışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümü qeyd olunub

*Noyabrın 20-də Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəliyində Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümü ilə bağlı tədbir keçirilib. Əvvəlcə Yeni Azərbaycan Partiyasının qurucusu, ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*



Tədbirdə çıxış edən daimi nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov qeyd edib ki, Yeni Azərbaycan Partiyası tarixi zərurətdən, dövlətçiliyin keşiyində dayanan siyasi qüvvə kimi meydana çıxdı və 1993-cü il oktyabrın 3-də ümummilli lider Heydər Əliyevin ölkə Prezidenti seçilməsi ilə hakim partiyaya çevrildi. Bu, xalqın həmin partiyaya böyük ümidinin, inamının real təzahürü idi. Yarandığı günlərdə sıralarında cəmi 550 üzvü olan Yeni Azərbaycan Partiyası bu gün öz sıralarında 700 mindən çox insanı birləşdirir. Birmənalı şəkildə qeyd edə bilərik ki, bugünkü qüdrətli, müasir müstəqil Azərbaycanın varlığı ulu öndərin adı ilə birbaşa bağlıdır.

Bildirilib ki, ulu öndər Heydər Əliyevin qurucusu olduğu partiya Azərbaycanda sabitliyin və milli həmrəyliyin yaranması, ölkəmizin davamlı tərəqqi yoluna çıxarılması və dinamik inkişafı, eləcə də Azərbaycanın regionun lider dövləti kimi dünyadakı mövqeyinin daha da gücləndirilməsi istiqamətində həyata keçirilən genişmiqyaslı işlərə öz töhfəsini verib. Müasir Azərbaycan dövlətinin yaradılması, yenidən əldə olunmuş müstəqilliyin qorunub saxlanılması, milli dövlətçilik ənənələrinin bərpa edilməsi ümummilli liderimizin XX əsrdə xalqımız qarşısında həyata keçirdiyi misilsiz xidmətləridir.

Vurğulanıb ki, bu gün ölkəmizin əsas aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının qüdrətini təmin edən çox mühüm amillərdən biri də partiyanın təməl prinsipləridir. Prezident İlham Əliyevin ulu öndər Heydər Əliyevdən sonra ölkəmizə rəhbərlik etdiyi dövrdə bütün sahələrdə əldə olunmuş nailiyyətlər bizə onu deməyə əsas verir ki, Yeni Azərbaycan Partiyası yarandığı gündən bu günə qədər qarşısına qoyduğu məqsədə çatmış və bununla kifayətlənməmiş, Vətənimizin uğurlu gələcəyi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin qısa zamanda, xalqımızın mənafeyinə uyğun həlli, suverenliyimizin bərpası naminə ulu öndər Heydər Əliyevin arzularını bir-bir gerçəkləşdirmək əzmində olan nəhəng, monolit və dünyəvi siyasi təşkilatdır.

Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəliyinin rəhbəri diqqətə çatdırıb ki, uzun illərdən bəri blokada şəraitində yaşayan muxtar respublikada böyük çətinliklər hesabına yaranmış Yeni Azərbaycan Partiyası hazırda ölkəmizin və onun dilbər guşəsi olan Naxçıvan Muxtar Respublikasının sürətli və davamlı inkişafının əsas təminatçısıdır. O deyib: “Bu gün Naxçıvan Muxtar Respublikasında həyata keçirilən sosial-iqtisadi inkişafın davamlı xarakter daşıması, irimiqyaslı layihələrin gerçəkləşdirilməsi, insanların firavanlığı naminə quruculuq, abadlıq işlərinin vüsət alması, infrastrukturun yenilənməsi, beynəlxalqiqtisadi əlaqələrin möhkəmləndirilməsi, enerji və ərzaq təhlükəsizliyinin təmin edilməsi, turizmin inkişafı, elmi potensialın, mədəniyyətin, təhsilin səviyyəsinin yüksəldilməsi, kənd təsərrüfatı və sənaye istehsalının artırılması, ixracın təşviqi, milli-mənəvi dəyərlərimizin təbliği, tarixi abidələrin bərpası, bir sözlə, milli dövlətçiliyin qorunması və digər məsələlər partiyanın əsas prinsiplərinin təkcə bu gözəl diyarda hansı miqyasda həyata keçirildiyindən xəbər verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyasının qurucularından biri cənab Vasif Talıbovun dediyi kimi: “***Müasir şəraitdə partiya üzvlərimizin qarşısında mühüm vəzifələr dayanır. “Sağlam cəmiyyət – güclü dövlət” sistemi üzrə doğma Azərbaycanımızın inkişafına çalışmalı, Yeni Azərbaycan Partiyasının üzvü kimi şərəfli adı öz əməyimizlə doğrultmalıyıq. Bizim məsuliyyətimiz – bizim vəzifəmizdir. Vəzifə – partiya quruculuğunda və hər birimizin konkret fəaliyyət sahələrində işə yaradıcı yanaşmaqdan, dəqiq, dürüst olmaqdan, ümummilli lider Heydər Əliyevin tövsiyə etdiyi kimi işləməkdən və ölkəmizi onun görmək istədiyi kimi qurub-yaratmaqdan ibarətdir***”.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında da hər il doğma partiyamızın ildönümü təntənəli şəkildə, yüksək əhval-ruhiyyə, şövqlə qeyd edilir. Hər il bu məqsədlə keçirilən çoxşaxəli tədbirlərdə gənclərin daha çox fəallıq nümayiş etdirməsi, onların böyük rəğbətlə, kütləvi şəkildə partiyaya üzv yazılmaları xalqımızın xoşbəxt gələcəyinə ümidləri artırır. Bu həm də onu göstərir ki, gənc nəsillər ulu öndər Heydər Əliyevin qurucusu olduğu bu siyasi partiyanın rəhbərliyi ilə Vətənimizin bundan sonra da əlçatmaz nailiyyətlərə imza atacağına ürəkdən inanır.

Tədbir digər çıxışlarla davam etdirilib.

**AZƏRTAC**

## Oktyabr ayında 18 istehsal sahəsinin yaradılması başa çatdırılıb

“Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası çərçivəsində muxtar respublika iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi, yerli resurs və xammalla işləyən, ixrac qabiliyyətli məhsullar istehsal edən sahələrin yaradılması istiqamətində tədbirlər davam etdirilmiş, cari ilin oktyabr ayında 18 istehsal sahəsinin yaradılması başa çatdırılmışdır. Mineral su istehsalı, qaynaq çubuğu, plastik səbət, xalçatoxuma, yun və boyaq bitkilərinin tədarükü, süd emalı, heyvandarlıq, quşçuluq, arıçılıq təsərrüfatları, istixana, soyuducu anbar və müxtəlif xidmətlər üzrə 49 sahənin yaradılması istiqamətində işlər davam etdirilmişdir.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sahibkarlığın İnkişafı Fondu tərəfindən oktyabr ayında 23 layihənin maliyyələşdirilməsinə 229 min 500 manat həcmində güzəştli şərtlərlə dövlət maliyyə dəstəyi göstərilmişdir. Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının fəaliyyətlərinin stimullaşdırılmasına dövlət maliyyə dəstəyinin göstərilməsi istiqamətində fond tərəfindən 16 ailə təsərrüfatına 126 min 500 manat həcmində güzəştli kreditlərin verilməsi təmin edilmişdir. Sahibkarların hüquqlarının daha etibarlı müdafiəsi məqsədilə 2019-cu ilin oktyabr ayında aidiyyəti dövlət orqanları tərəfindən xüsusi fəaliyyət növləri üzrə 11 lisenziya, 6 icazə verilmiş, “Qaynar xətt” vasitəsilə 484 sahibkarlıq subyekti ilə maarifləndirmə istiqamətində iş aparılmış, sahibkarların sorğuları cavablandırılmışdır.

“İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən ərzaq mallarının keyfiyyətinə nəzarət tədbirləri davam etdirilmiş, 38 mal çeşidini əhatə edən 70 halda səyyar, 211 halda laboratoriya təhlillərinin aparılması təmin edilmişdir. Aparılmış laboratoriya təhlilləri 137 yerli istehsal və 74 idxal məhsullarını əhatə etmişdir.

“Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın icrası istiqamətində “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin xalq yaradıcılığı emalatxanasında və Cəlilkənd Buxzana Kompleksində 4 xalça toxunmuşdur.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər oktyabr ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan, qanunsuz əmək fəaliyyəti ilə məşğul olan, habelə müvəqqəti yaşamaq üçün icazə vəsiqəsini itirən 36 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barələrində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə 392-si əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazələrin verilməsi və yenidən rəsmiləşdirilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı, ümumilikdə, 1121 müraciət daxil olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir. Həmçinin olduğu yer üzrə qeydiyyatla bağlı 729 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 299-u elektron sistemlər portalı və elektron poçt üzərindən qəbul edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Payız suvarma mövsümü mütəşəkkil keçirilir



Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Komitəsi tərəfindən suvarma mövsümünü mütəşəkkil keçirmək, əkin sahələrinin su təminatı və su itkisinin qarşısının alınması, müasir suvarma sistemlərinin quraşdırılması istiqamətində işlər oktyabr ayında da davam etdirilmişdir. Qeyd olunan dövrdə su istifadəçilərinə 13 milyon kubmetr suvarma suyu verilmiş, təkrar suvarma daxil olmaqla, 10 min 908 hektar torpaq sahəsi suvarılmış, 7 kilometr beton və torpaq kanal, 20 kilometr ara arxlar, 4 kilometr kollektor lildən təmizlənmiş, 3 kilometr yeni suvarma xətti çəkilmişdir.

Şahbuz rayonunun Türkeş kəndi ərazisindəki 300 hektar sahəni əhatə edən qapalı suvarma şəbəkəsində, Külüs kəndi ərazisindəki nasos stansiyasında, Şərur və Ordubad rayonlarındakı sutəmizləyici qurğularda tikinti işləri davam etdirilmişdir.

Ötən ay suvarma və içməli su mənbəyi kimi istifadə olunan kəhriz və subartezian quyularının təmir-bərpası da diqqətdə saxlanılmış, 5 kəhrizdə bərpa işləri, 70 subartezian quyusunda təmir işləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

## Operativ vergi nəzarəti tədbirləri görülür



2019-cu ilin oktyabr ayında Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə monitorinq və yoxlamalar aparılıb. Keçirilən nəzarət tədbirləri zamanı 1 şəxsin “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz” almadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu aşkarlanıb və həmin şəxs barəsində qanunamüvafiq tədbirlər görülüb. Həmçinin vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 5 vergiödəyicisində xronometraj metodu ilə müşahidə aparılıb.

Qeyd olunan dövrdə müvafiq icra hakimiyyəti orqanları ilə birgə 47 işəgötürəndə aparılmış araşdırmalar zamanı 91 yeni əmək müqaviləsinin bağlanmasına və 296 əmək müqaviləsində isə əməkhaqlarının minimum əməkhaqqı məbləğinə çatdırılmasına nail olunub.

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti***

*Təhsil millətin gələcəyidir*

# Gənclər bu günün təşəbbüskarı, sabahın mütəxəssisi kimi yetişir

*Tələbəlik həyatı həmin illəri yaşayan hər kəs üçün silinməz bir xatirədir. Tələbələr özlərini gələcəyin mütəxəssisi kimi görür, bununla bağlı gələcək planlarını qururlar. Ölkəmizdə təhsil və gənclərlə bağlı dövlət siyasətinin uğurla icra edilməsi, təhsildə mühüm islahatların aparılması bir zamanların ənənəsinə çevrilən “sadəcə, diplom almaq xatirinə” düşüncəsini də alt-üst edib. İndi artıq hər kəs sevdiyi və seçdiyi ixtisasın mütəxəssisi kimi yetişməyi qarşısına məqsəd qoyaraq təhsilini davam etdirir. Çünki günümüzdə sağlam rəqabət mühiti yaranıb. Tələbələr yaxşı mütəxəssis olmağı, təşkilatlar isə ən yaxşını işə qəbul etməyi qarşısına məqsəd qoyub.*

Bu mənada, günümüzdə, sadəcə, təhsil almaq deyil, həm də gələcəyin mütəxəssisi kimi yetişmək əsas tələblərdəndir. Buna görə də muxtar respublikada gənclərin savadlı kadr və peşəkar mütəxəssislər kimi yetişdirilməsi diqqət mərkəzində saxlanılır, bu məqsədlə təhsildə innovativ yeniliklər tətbiq edilir.






Təhsildə yeni yanaşma metodları sırasında muxtar respublikada tətbiq olunan “hamilik” anlayışını da xüsusi vurğulamaq yerinə düşər. “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2015-ci il 27 iyul tarixli Sərəncamı təhsilin beynəlxalq standartlar səviyyəsinə uyğunlaşmasına təkan verdi. Sərəncamın icrası nəticəsində 3 ali, 3 orta ixtisas təhsili müəssisəsini əhatə edən 100-ə yaxın ixtisas və 1 lisey 31 təşkilat tərəfindən himayəyə götürülüb. Bu sərəncamla hami təşkilatlar və təhsil müəssisələri arasında əlaqələr genişlənib, qarşılıqlı əməkdaşlıq insan kapitalının inkişafına, iqtisadi cəhətdən dayanıqlı əmək bazarının yaradılmasına, təhsilverənlə işəgötürən arasında tələblərin formalaşmasına yol açılıb.

İxtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi qısa zamanda öz bəhrəsini verib. Bu, bir daha təsdiq edir ki, daim yenilənən və təhsilin inkişafını tələb edən informasiyalı cəmiyyət kadr hazırlığı işinin yeni müstəvidə hazırlanmasını tələb edir.

Bu tələbat nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2019-cu il aprelin 3-də “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” Sərəncam imzalandı. Sərəncama əsasən ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi qaydası yeni redaksiyada təsdiq edildi. Dövlət sənədi yeni dövrün tələbi olan “startap” anlayışının əhatə etdiyi bütün sahələrdə innovasiyanı və dayanıqlı inkişafı əsas götürür. Yeni sərəncamla 3 ali və 3 orta ixtisas təhsili müəssisəsini əhatə edən 109 ixtisas və 1 lisey müvafiq 36 təşkilata hamiliyə verilib.

Bu sərəncam müvafiq təşkilatlarla tələbələrin birgə fəaliyyətini təmin edib, tələbə-gənclərin praktik biliklərinin möhkəmlənməsi ilə yanaşı, daha aktiv və təşəbbüskar fəaliyyətə zəmin yaradıb. Müxtəlif görüşlərdə, elmi və istehsalat təcrübələrində iştirak edən gənclər öz ixtisaslarına daha maraqla yanaşır, yeni ideyalarla çıxış edirlər. Sərəncama uyğun olaraq muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri ilə müvafiq təşkilatlar arasında əməkdaşlıq daha da genişləndirilir, tələbələrə elmi-nəzəri biliklərlə yanaşı, təcrübi biliklər də aşılanır.

“İdeyadan başlanğıca” devizi altında hamiliyə verilən təhsil müəssisələri hami təşkilatlarla birgə innovasiyaya və dayanıqlı inkişafa əsaslanan, yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələr – startaplar həyata keçirirlər. Hami təşkilatlarda isə layihələrin dəyərləndirilməsini həyata keçirən ekspert qrupları və ictimai əsaslarla fəaliyyət göstərən mərkəzlər tərəfindən startaplar qəbul olunur və tələbələrin yeni layihələrinin təqdimatlarının keçirilməsi təmin edilir. Məqsəd isə tələbələrin ayrı-ayrı layihələri həyata keçirməsinə, elmi-tədqiqat işlərinin tətbiqinə nail olmaqdır. Bütün bunlar bir daha təsdiq edir ki, muxtar respublikada təhsil sisteminin beynəlxalq standartlar səviyyəsinə yüksəldilməsi, yeni inkişaf mərhələsində təhsil müəssisələrinin təhsil-tədqiqat-innovasiya mərkəzlərinə çevrilməsi, onlarda rəqabətqabiliyyətli mütəxəssis hazırlığının təmin olunması istiqamətində məqsədyönlü tədbirlər davam etdirilir.

Hamiliyə verilən müvafiq ixtisas tələbələri təcrübə qazanmaq üçün müxtəlif təşkilatlarda və nazirliklərdə olurlar. Keçirilən nəzəri-təcrübi əhəmiyyətli tədbirlərin onların bilik və bacarıqlarının yüksəlməsinə müsbət təsiri vardır. Tələbələr əldə etdikləri bilikləri, ideyaları təcrübədə müvəffəqiyyətlə tətbiq etməyə çalışırlar. Bu isə müasir yanaşmanı və onların cəmiyyətə hərtərəfli inteqrasiyasını təmin etməyə əlverişli şərait yaradır.

Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi bilikli və təcrübəli gənc kadrların hazırlanması ilə yanaşı, onların gələcəkdə işlə təmin olunmasını da xeyli asanlaşdırır. Çünki tələbəlik illərindən hamiliyə götürdüyü gənclərin iş qabiliyyətinə və təcrübəsinə bələd olan şirkət və təşkilatlar onları gələcək əməkdaşları kimi qəbul edirlər. Kadr hazırlığı sistemində akademik hazırlığın təcrübə ilə vəhdəti yetişən kadrların gələcək karyera imkanlarına ən etibarlı təminat kimi özünü göstərir. Gənclər də yaradılan bu şəraitdən istifadə edərək bilik və bacarıqlarını praktik əsasda möhkəmləndirir, startap layihələrinin iştirakçısı, innovativ təkliflərin müəllifi kimi aktiv fəaliyyət göstərirlər. Nəticədə, tələbələr öz ideyalarını təcrübədə tətbiq edir və qazandıqları bilikləri digərləri ilə bölüşürlər.

Bu gün dəmir yolu nəqliyyatı üzrə təhsil alan tələbələr təcrübəni dəmir yolu təsərrüfatında, rabitəçi yeni informasiya-kommunikasiya texnologiyaları mühitində, müəllimliyə könül verən gənclər məktəblərdə, ədaləti qorumağa çalışan gələcəyin hüquqşünasları məhkəmə-prokrotura sistemlərində, gələcəyin ekoloqları ixtisasını təbiətlə təmasda öyrənib möhkəmləndirirlər. Nəticədə, gələcəyin yüksək bilik və bacarıqlara yiyələnən mütəxəssisləri yetişir. Bu gün həm də gənclərimiz startap layihələrinin müəllifi kimi yaratmaq, inkişaf etdirmək ideyalarını reallaşdırırlar. Bir sözlə, sözügedən sərəncam ali təhsilin inkişafı, tələbələrin ixtisaslara praktik cəhətdən daha mükəmməl yiyələnmələri məqsədilə qəbul edilən və artıq öz real nəticələrini göstərən mühüm dövlət sənədidir.

Naxçıvan Muxtar Respublikasında investisiya mühitini yaxşılaşdırmaq, yaradıcı düşüncəni və inkişafa xidmət edən ən yaxşı layihələri üzə çıxarmaq, innovativ ideyaları həyata keçirmək istiqamətində görülən işlər uğurla davam etdirilir.

**Gülcamal TAHİROVA**

# Ümumdünya Uşaq Günü ilə əlaqədar tədbir



20 noyabr – Ümumdünya Uşaq Günü, Uşaq Hüquqları haqqında Bəyannamənin qəbul olunmasının 60 illiyi və Uşaq Hüquqları haqqında Konvensiyanın qəbul olunmasının 30 illiyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Təhsil, Mədəniyyət nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində tədbir keçirilib.

Əvvəlcə tədbirin aparıcıları bu günün tarixi haqqında məlumat veriblər.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Təhsil naziri Rəhman Məmmədov və Mədəniyyət naziri Natəvan Qədimova çıxış ediblər. Bildirilib ki, muxtar respublikada uşaqlar dövlət qayğısı ilə əhatə edilir. Bu gün muxtar respublika əhalisinin 35 faizi və ya 163 min 815 nəfəri uşaqdır.

Qeyd olunub ki, Ali Məclis Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə “Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası” təsdiq edilib, uşaq hüquqlarının müdafiəsi üçün dövlət qurumları arasında koordinasiya və nəzarət sistemi təkmilləşdirilib, monitorinq qrupu yaradılıb. Muxtar respublikada ailələrdə himayə və qəyyumluqda yaşayan uşaqlara, həmçinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş, qaçqın və məcburi köçkün, sağlamlıq imkanı məhdud, şəhid və aztəminatlı ailələrdən olan uşaqlara bayram günlərində və tədbirlərdə hədiyyə və sovqatlar verilib, həmçinin hər il 15 sentyabr – Bilik Günü ilə əlaqədar müvafiq uşaqlar məktəbli paltarı, dərs ləvazimatları və qış geyimi ilə təmin olunublar.

Çıxış edənlər muxtar respublikada uşaqlara göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Sonra tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 2019-cu ildə təhsil, idman, incəsənət nominasiyaları üzrə fərqlənən 16 uşağa diplom və hədiyyə təqdim olunub.

Tədbirin bədii hissəsində Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının mahnı və rəqs qruplarının, Naxçıvan şəhərindəki 11 nömrəli uşaq bağçasının balaca fidanlarının çıxışları olub.

Qeyd edək ki, həmin gün muxtar respublikanın rayonlarında da analoji tədbirlər keçirilib.

***Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# “Rəqəmsal ödənişlər dövrün tələbidir” mövzusunda görüş keçirilib

*Naxçıvan Muxtar Respublikası Vergilər və İqtisadiyyat nazirliklərinin və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin təşkilatçılığı və sahibkarların iştirakı ilə “Nağdsız ödəniş əməliyyatlarının həcminin artırılması, rəqəmsal ödəniş xidmətlərindən istifadənin daha da genişləndirilməsi” mövzusunda tədbir keçirilib.*



Naxçıvan Biznes Mərkəzində keçirilən tədbiri giriş sözü ilə açan Vergilər Nazirliyinin şöbə rəisi Rəşad Əliyev diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamı ilə təsdiq olunan “2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram”ın həyata keçirilməsi davam etdirilir.

İqtisadiyyat Nazirliyinin şöbə müdiri Xudakərim Məmmədov qeyd edib ki, iqtisadi inkişafın təməl prinsiplərindən biri özəl sektorun, xüsusilə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi, maliyyə sövdələşmələrinin nağdsız hesablaşmalar vasitəsilə aparılması yüksək faydalılıq əmsalları ilə təzahür olunur. Bu gün muxtar respublikamızda bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir.

Vergilər Nazirliyinin şöbə rəisi Zahid Qənbərov bildirib ki, nağdsız hesablaşmalar sahəsində görülmüş işlərin növbəti mərhələsi olan yeni proqram üzrə qarşıya qoyulmuş məqsəd və vəzifələr yerinə yetirilir. Eyni zamanda rəqəmsal ödəniş infrastrukturunun inkişaf etdirilməsi, yeni xidmətlərin tətbiqi və əhatə dairəsinin genişləndirilməsi, əhali və iqtisadi subyektlər arasında rəqəmsal ödənişlər üzrə maarifləndirmə və təbliğatın gücləndirilməsi istiqamətlərində tədbirlər reallaşdırılır.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşı Azər Səfərov nəzərə çatdırıb ki, nağdsız əməliyyatların genişləndirilməsi tədbirləri çərçivəsində 1 noyabr 2019-cu il tarixə muxtar respublikanın ticarət və iaşə obyektlərində 1278 POS-terminal elektron qaydada qeydiyyatdan keçirilərək quraşdırılıb. Bununla bərabər muxtar respublikada ödəniş kartlarının sayı 270 min 536 ədədə çatdırılıb və 2019-cu ilin 10 ayı ərzində POS-terminal, internet və digər ödəniş vasitələri daxil olmaqla, nağdsız ödənişlərin həcmi 36 milyon 137 min 969 manat olub.

Sonda sahibkarları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti***

# Tibbi xidmətin əhatə dairəsi genişləndirilir

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini oktyabr ayında da davam etdirmiş, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqət mərkəzində saxlanılmışdır.*

Ötən ay muxtar respublikanın səhiyyə sistemində kadrların bilik və bacarıqlarının artırılması vacib məsələ kimi diqqətdə saxlanılmış, həkim, rezident və orta tibb işçiləri Türkiyə Respublikasında və Bakı şəhərində kurslara göndərilmiş, həmçinin Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin 27, Naxçıvan Tibb Kollecinin isə 140 tələbəsi tibb müəssisələrinə hamiliyə verilmişdir. 81 həkim sertifikasiya imtahanında iştirak etmiş, 75-i uğurlu nəticə qazanmışdır.

Ötən ay Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim briqadası Kəngərli və Sədərək rayonlarında yaşayan I qrup yataq xəstələrini evlərdə tibbi müayinədən keçirmişdir. Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkimləri tərəfindən Naxçıvan Muxtar Respublika Xəstəxanasında 71 müayinə, 22 cərrahiyyə əməliyyatı aparılmışdır. Həmçinin I-VI sinif şagirdləri arasında ilkin vərəmi aşkarlamaq məqsədilə 1210 uşaqda tuberkulin sınaqları aparılmış, şagirdlərə şəxsi gigiyena qaydalarının öyrədilməsi üçün məşğələ və maarifləndirici tədbirlər keçirilmişdir. Təhsil müəssisələrində 26 min 493 şagird kütləvi müayinələrə cəlb edilmiş, 3 min 470 şagird dispanser qeydiyyatına alınmışdır.

Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən 67 qadında süd vəzinin profilaktik müayinəsi aparılmış, patologiya aşkar edilən qadınlar Onkoloji Mərkəzə ətraflı müayinə və müalicəyə dəvət olunmuşlar.

Oktyabr ayında Bakı şəhərindən 120 sağlamlıq imkanı məhdud şəxs Darıdağ Arsenli Su Müalicəxanasına, Duzdağ Fizioterapiya Mərkəzinə və Diaqnostika Müalicə Mərkəzinə sanator-kurort müalicəsi üçün qəbul edilmiş, muxtar respublika üzrə 53 nəfər Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 21 nəfər isə müxtəlif xəstəxanalara müalicəyə göndərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

Bələdiyyə seçkiləri – 2019

# Seçki marafonu

**23 dekabr 2019-cu il Azərbaycan Respublikasında bələdiyyə seçkiləri günüdür.**

**Hörmətli seçicilər**

Azərbaycan Respublikasının vətəndaşları seçkilərdə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə iştirak edirlər.

**Ümumi seçki hüququ**

Bütün insanların səs vermək və seçilmək hüququna malik olması deməkdir. Seçki Məcəlləsinə əsasən irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən və ya digər statusundan asılı olmayaraq Azərbaycan Respublikası vətəndaşlarının seçmək, seçilmək və referendumda iştirak etmək hüququ vardır.

**Azərbaycan Respublikasında yerli özünüidarəni həyata keçirən bələdiyyələrin üzvləri nisbi çoxluq sistemi əsasında çoxmandatlı seçki dairələri üzrə seçilirlər.**

**Bərabər seçki hüququ**

Vətəndaşlar seçkilərdə bərabər əsaslarla iştirak edirlər. Səsvermə zamanı hər bir vətəndaşın bir səsi vardır. Vətəndaşların hər bir səsi eyni hüquqi qüvvəyə malikdir. Bu qaydalar həm seçici səslərinin bərabərliyini, həm də namizədlər üçün imkan bərabərliyi prinsiplərini özündə cəmləşdirir. Belə ki, həmin prinsipə əsasən hər bir seçicinin bir səsi olur və hər bir səs eyni hüquqi qüvvəyə malik olur. Bir səsdən çox səs verildiyi yerlərdə isə, hər bir seçicinin eyni sayda səsi olur.

**Birbaşa seçki hüququ**

Vətəndaşlar seçkilərdə namizədin lehinə və ya əleyhinə şəxsən səs verirlər.

**Başqa şəxslərin yerinə səs vermək qadağandır.**

Başqalarının əvəzinə səs verən və ya bunun üçün şərait yaradan vətəndaşlar Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və ya İnzibati Xətalar Məcəlləsində göstərilən məsuliyyətə cəlb olunurlar.

**Gizli səs vermək hüququ**

Seçki Məcəlləsinin 6-cı maddəsində göstərilir ki, seçkilər zamanı səsvermə gizli olmalıdır, bu isə seçicilərin iradəsinin ifadəsi üzərində hər cür nəzarəti istisna etməlidir. Gizlilik seçicinin yalnız hüququ deyil, həm də vəzifəsidir.

**Səsvermə fərdi olmalıdır. Ailə səsverməsi və bir seçici tərəfindən digər bir səs üzərində nəzarətin hər hansı forması qadağan edilməlidir.**

**Aktiv seçki hüququ**

Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində və Seçki Məcəlləsinin 14-cü maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, bələdiyyə seçkilərinin keçirilməsi günü (həmin gün də daxil olmaqla) 18 yaşına çatmış Azərbaycan Respublikasının hər bir vətəndaşının seçmək, seçkilərin gedişini müşahidə etmək, seçkiqabağı təşviqatda iştirak etmək, bu Məcəllə ilə nəzərdə tutulmuş seçki hərəkətlərində iştirak etmək hüququ – aktiv seçki hüququ vardır.

**Passiv seçki hüququ**

Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində və Seçki Məcəlləsində nəzərdə tutulan hallar istisna olmaqla, aktiv seçki hüququna malik olan hər bir vətəndaşın Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş bələdiyyə üzvlüyünə namizədlər üçün irəli sürülən tələblərə cavab verdikdə, bələdiyyə üzvü seçilmək hüququ – passiv seçki hüququ vardır.

**Seçkilərdə iştirak etmək hüququna malik olan və müvafiq seçki dairəsində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları bələdiyyələrə üzv seçilə bilərlər.**

Bələdiyyə seçkilərində passiv seçki hüququ ilə bağlı məhdudlaşdırıcı hallar Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsi və Seçki Məcəlləsi ilə müəyyən edilir.

*Aşağıdakı şəxslərin, bələdiyyə üzvü seçilmək hüququ — passiv seçki hüququ yoxdur:*

- məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum etmə yerlərində cəza çəkən şəxslər;
- Azərbaycan Respublikası Cinayət Məcəlləsinə əsasən ağır, xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş şəxslər;
- ikili vətəndaşlığı olan Azərbaycan Respublikası vətəndaşları (ikili vətəndaşlığı qalanadək);
- xarici dövlətlər qarşısında öhdəlikləri olan Azərbaycan Respublikası vətəndaşları (həmin öhdəliklərə xitam verilənədək). Belə öhdəliklər 5 ildən çox xarici dövlətdə yaşamaqla bağlı əmələ gələn davamlı, möhkəm və sabit münasibətlərin mövcudluğuna səbəb olan qeydiyyat, vergi, ölkə ərazisini müəyyən müddətdən artıq tərk etməmək, habelə digər siyasi və ya hüquqi öhdəliklər də ola bilər.

***Bələdiyyə seçkilərində iştirak edənlər aşağıdakı şərtlərə riayət etməlidirlər:***

- mətbuat azadlığına hörmət bəsləmək;
- öz peşə fəaliyyəti ilə məşğul olan kütləvi informasiya vasitələri nümayəndələrinin işinə mane olmamaq, namizədlərin seçki kampaniyalarına müdaxilə etməmək və onu pozmamaq;
- seçkiqabağı təşviqat materiallarının, referendumqabağı təşviqat materiallarının yayılmasına mane olmamaq;
- seçkiqabağı təşviqat plakatlarını və digər bu cür təşviqat materiallarını məhv etməmək və korlamamaq;
- seçkiqabağı kütləvi tədbirlərin keçirilməsinə mane olmamaq;
- seçkilərin azad, sərbəst, dinc və mütəşəkkil keçirilməsi üçün seçki orqanları ilə və onların vəzifəli şəxsləri ilə əməkdaşlıq etmək;
- seçicilərin öz iradəsini azad və sərbəst bildirməsinə maneçilik törətməmək;
- səlahiyyətli şəxslərə və müşahidəçilərə hörmət bəsləmək və onlarla əməkdaşlıq etmək;
- səsvermənin gizliliyini saxlamaq və saxlanılmasına kömək göstərmək;
- seçiciləri qeyri-qanuni hərəkətlər yolu ilə öz tərəfinə çəkməmək;
- seçki komissiyalarının fəaliyyətlərinə əsassız müdaxilə etməmək, səslərin verilməsi və ya səslərin hesablanması prosesini pozmamaq;
- seçkilərin qanuni təsdiqlənmiş nəticələrinə hörmət etmək, seçkilərlə bağlı hər bir şikayəti səlahiyyətli orqana təqdim etmək və həmin orqanın bu şikayətlə bağlı qərarına riayət etmək;
- hədə-qorxu və böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməmək və bu cür materiallar yaymamaq;
- seçicilərə mükafat təklif etməmək, onları cəza ilə hədələməmək;
- dövlət resurslarından, bələdiyyə və digər ictimai resurslardan Seçki Məcəlləsi ilə nəzərdə tutulmamış hallarda istifadə etməmək;
- təzyiq göstərmək və ya bəxşiş təklif etmək yolu ilə və ya digər qanunazidd üsullarla seçiciləri səs verməyə, səsvermədən çəkinməyə sövq etməmək;
- təzyiq göstərmək ilə və ya bəxşiş təklif etmək yolu və ya digər qanunazidd üsullarla seçiciləri referendum üzrə təşviqat qruplarında iştirak etməyə və ya iştirak etməməyə, öz namizədliklərini irəli sürməyə və ya irəli sürməməyə, namizədliklərini geri götürməyə və ya geri götürməməyə, seçkiqabağı təşviqatda iştirak etməyə və ya iştirak etməməyə məcbur etməmək;
- heç bir vəzifəli şəxsin referenduma çıxarılan məsələnin, namizədin dəstəklənməsinə və ya dəstəklənməməsinə yönəldilən köməyindən və ya fəaliyyətindən istifadə etməmək.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası***

# Qaz cihazlarından istifadə edərkən təhlükəsizlik qaydalarına riayət edilməlidir

***Havaların soyuması ilə əlaqədar olaraq muxtar respublika ərazisində əhalinin mavi yanacağa olan tələbatı artmağa başlayıb. Ötən illərin təcrübəsi göstərir ki, vətəndaşlar tərəfindən qaz cihazlarından təhlükəsizlik qaydalarına uyğun istifadə edilməməsi səbəbindən bir çox hallarda xoşagəlməz hadisələr baş verir.***



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi bunları nəzərə alaraq qaz cihazları və qaz təsərrüfatı ilə bağlı təhlükəsizlik qaydalarının tələblərini bir daha diqqətə çatdırır, aşağıdakı təhlükəsizlik qaydalarına əməl olunmasını vacib hesab edir.

Qaz cihazlarının xətlərində özbaşına dəyişiklik etmək, təhlükəsizlik qurğusunu çıxarmaq, rezin şlanqla qaz xəttinin çəkilişini aparmaq olmaz. Qaz cihazlarının quraşdırılması, yerinin dəyişdirilməsi və qaz xətlərinin çəkilişi yalnız bu sahə üzrə mütəxəssislər tərəfindən həyata keçirilməlidir. Qaz kəmərlərindən, qaz balon və cihazlarından qazın sızmasını yoxlamaq üçün açıq oddan istifadə etmək qəti qadağandır. Bundan ötrü, yalnız sabun məhlulundan istifadə edilməlidir.

Vanna otağında qazla işləyən suqızdırıcı cihaz quraşdırmaq olmaz. Hamam otağına hava daxil olması üçün qapının aşağısında deşiklər olmalı, nəfəslik açıq saxlanmalı, ventilyasiya kanalı daim işlək vəziyyətdə olmalıdır.

Yaşayış evləri və mənzillərdə qaz cihazlarını işlək vəziyyətdə qoyub yatmaq, sobaların həddindən artıq isinməsinə yol vermək, onların istifadəsini azyaşlı uşaqlara etibar edib evdən çıxmaq olmaz. Mənzili tərk edərkən qaz cihazlarını söndürməli, qaz borularının ventilləri bağlanmalıdır.

Mətbəxdə qaz plitəsi və suqızdırıcı quraşdırılarkən otağın həcmi nəzərə alınmalıdır. Belə ki, qaz cihazları quraşdırılan mətbəx otağının hündürlüyü 2,2 metrdən az olmamalı, pəncərə açıq nəfəslik və havadəyişmə kanalı ilə təmin edilməlidir. Qaz cihazlarının tüstü boruları digər məişət cihazlarının borularına qoşulmamalıdır.

Qaz cihazlarının istismarı zamanı əhalinin üzləşdiyi xoşagəlməz hadisələrdən biri də dəm qazı ilə zəhərlənmədir. Dəm qazı ilə zəhərlənmə daha çox hava təchizatı pis olan otaq və qarajlarda, habelə standarta uyğun olmayan və kustar üsulla hazırlanan qaz sobaları və suqızdırıcıların istismarı zamanı baş verir. Tüstünün xaric olunması üçün standarta uyğun olmayan və tez qatlanan borulardan istifadə etmək olmaz. Bunun üçün yalnız düzaxımlı metal borulardan istifadə edilməli və eyni zamanda tüstü boruları binaların dam örtüyündən 70 santimetr hündürlükdə quraşdırılmalıdır. Dəm qazının yaranmaması üçün tüstü boruları küləyin istiqaməti nəzərə alınmaqla quraşdırılmalı və həmin boruların çıxışı tutulmamalıdır.

Qaz cihazını alarkən onun sənaye üsulu ilə hazırlanmasına və təhlükəsizlik qurğusu ilə təchiz olunmasına diqqət yetirmək lazımdır. Partlayış, yanğın və dəm qazı ilə zəhərlənmə kimi xoşagəlməz hadisələrin əksəriyyəti qaydaları bilməməkdən və ya onlara riayət edilməməsi səbəbindən baş verir. Bunun üçün cihazın istismar qaydaları, tüstü borusunun düzgün quraşdırılması, ən vacibi isə hansı şəraitdə normal rejimdə işləməsi məsələlərini dəqiq bilmək və yadda saxlamaq lazımdır.

Qazla əlaqədar təhlükəsizlik qaydalarını hamı bilməli, ona hər bir vətəndaş ciddi əməl etməlidir. Unutmamalıyıq ki, bu qaydalara əməl etməməklə biz zəhərlənmə, yanğın, partlayış təhlükəsi yaradır, özümüzü, ailə üzvlərimizi, ətrafdakı insanları bədbəxt hadisələrə düçar edirik.

***Qaz cihazları ilə bağlı hər hansı təhlükə ilə üzləşdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin "101" xidmətinə məlumat verilməlidir. Unutmayın ki, təhlükəsizliyiniz öz əlinizdədir.***

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən oktyabr ayında gənclərin asudə vaxtlarının səmərəli təşkili, dünyagörüşünün formalaşdırılması və vətənpərvərlik hisslərinin aşılanması, idmanın kütləviliyinə nail olunması istiqamətində ardıcıl tədbirlər görülmüş, idmançılarımızın ölkə və beynəlxalq turnirlərdə iştirakı təmin edilmişdir.*

# İdmançılarımız ötən ay 16 medal qazanıblar



Ötən ay Naxçıvan Muxtar Respublikasının 95 illiyi ilə əlaqədar yeniyetmələr arasında oxunması zəruri olan kitablar əsasında "Nə? Harada? Nə zaman?" intellektual oyununun Babək, Culfa və Ordubad rayon birincilikləri, "Muxtar respublikanın ən yaxşı Tələbə-Gənclər Təşkilatı" müsabiqəsi çərçivəsində "Təbiətsevər" yarışı, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında bədii qiraət müsabiqəsi, "Xəmsə" milli intellektual oyunu keçirilmiş, Şahbuz rayonunda Naxçıvan Dövlət Universitetinin gənc ifaçılarının konserti təşkil olunmuşdur.

"Naxçıvanı tanıyaq" devizi altında gənclərin Ordubad rayon muzeylərinə ekskursiyası təşkil edilmiş, ümummilli lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyətindən bəhs edən "Dahi şəxsiyyət" və "Xalqa bağışlanan ömür" adlı sənədli filmlər nümayiş olunmuşdur. 18 oktyabr – Dövlət Müstəqilliyi Günü münasibətilə yeniyetmə və gənclər arasında boks, cüdo, karate-do, basketbol, kikboksinq, voleybol, boccia, şahmat idman növləri üzrə birinciliklər və yoldaşlıq görüşləri, Naxçıvan Futzal Liqasının oyunları, 13-14 yaşlı futbolçulardan ibarət Naxçıvan yığmasının təlim-məşq toplanışı, Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsində tələbələrlə futbol hakimliyi kursu təşkil olunmuşdur.

Oktyabr ayında muxtar respublika idmançılarının müxtəlif idman növləri üzrə keçirilən Azərbaycan çempionatlarında, beynəlxalq turnirlərdə iştirakı təmin olunmuş, idmançılarımız yüksək nəticələr əldə edərək Azərbaycan birinciliyində 16 medal qazanmışlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 11/1 ünvanında Məhərrəmov Vüqar Abbas oğlunun adına olan 000483 inventar nömrəli texniki pasport və MH-0066594 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 798